

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 95 (23.507)

19 iyun 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammiti keçirilib.

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək deyib: Azərbaycan Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik.

Dövlətimizin başçısı Ermənistan və Azərbaycan arasında olan münaqişənin eyni prinsiplər əsasında həll olunmasından, Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirməsindən, Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonunun 30 ilə yaxın Ermənistanın işğalı altında olmasından, Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsindən ətraflı danışıb.




## Şərurda quruculuq ünvanlarının xəritəsi genişlənir

*Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur bu gün müasir Azərbaycan rayonudur. Rayon mərkəzi olan Şərur şəhəri, bölgənin kəndləri füsunkar bir gözəlliyə qovuşub, yenilənib, müasirləşib. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər bəhrələrini verib. Kənd yaşayış məntəqələrində müasir infrastruktur yaradılıb. Həmin ünvanlarda sahibkarlıq obyektləri fəaliyyətə başlayıb. Bu isə yeni iş yerlərinin açılmasına, insanların məşğulluğunun təmin olunmasına imkan verib. Turizm potensialından düzgün istifadə üçün tədbirlər reallaşdırılıb. Həyatın bütün sahələrində qazanılan uğurlar getdikcə artmaqdadır.*



Son 25 ildə rayonda həyata keçirilən quruculuq tədbirlərinin həcmi o qədər böyükdür ki, onları adbaad sadalamaq mümkün deyil. Təkcə 2020-ci ilin ötən dövründə inşası başa çatdırılan və hazırda davam etdirilən obyektlərə diqqət yetirmək kifayətdir ki, rayonda həyata keçirilən quruculuq tədbirlərinin coğrafiyası barədə təsəvvürə malik olasan. Belə ki, rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün 2020-ci ilin birinci rübündə bütün maliyyə mənbələrindən əsas kapitala 7 milyon 166 min 300 manat həcmində vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş vəsait 6 milyon 932 min 100 manat təşkil edib.

Yaşayış məntəqələrinin abadlaşdırılması və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi, həmçinin insanların sosial rifah halının yaxşılaşdırılması, əhalinin təmiz və keyfiyyətli içməli su ilə təmin olunması, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlər rayon sakinləri, idarə, müəssisə və təşkilatlarda çalışan əməkdaşlar tərəfindən onlara göstərilən qayğı kimi dəyərləndirilir.

Onu da qeyd edək ki, əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib. 2020-ci ilin birinci rübündə rayonda əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 7 min 460 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib ki, bu da 2019-cu ilin müvafiq dövründəki göstəricidən 0,3 faiz çoxdur.

Bəhs olunan dövrdə rayonda 13 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir edilib.

Aprel ayında rayon mərkəzində Mərasim evi və dini icma üçün iş otaqlarının, “Çomaxtur” elektrik yarımstansiyasının, may ayında isə Məmmədsabir kəndində kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, Muğancıq-Mehrabda kənd və xidmət mərkəzlərinin, tam orta məktəb binasının, feldşer-mama məntəqəsinin tikilib istifadəyə verilməsi şərurlularda böyük sevinc hissi yaradıb.





Hazırda 20-dək ünvanda müxtəlif istiqamətli tikinti və ya yenidənqurma işləri həyata keçirilir.

Onlardan biri Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən bölgədə inşası aparılan Sənaye Məhəlləsidir. Məlumat üçün bildirək ki, ötən il dekabr ayının 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şərur Sənaye Məhəlləsinin yaradıldığı əraziyə gəlib, görülən işlərlə tanış olub, tikinti işlərinin layihəyə uyğun aparılması, daha çox tələbat olan məhsulların istehsalına üstünlük verilməsi, mühəndis-texniki tələblərə əməl olunması barədə tapşırıqlar verib.

Qeyd edək ki, Sənaye Məhəlləsində ilkin olaraq bitki yağı, ofis ləvazimatları, kağız-torba və çorab istehsalı sahələri yaradılacaq. Məqsəd tələbatın müəyyən hissəsini yerli istehsal hesabına ödəmək, əhalinin məşğulluq səviyyəsini artırmaqdır. Tikinti işlərinin keyfiyyətlə aparılması, obyektlərin vaxtlı-vaxtında təhvil verilməsi üçün inşaatçılara hərtərəfli şərait yaradılıb. Texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. İnşaat işləri başlanandan əhalinin məşğulluğunun artırılmasına da imkan yaranıb.

Sənaye Məhəlləsində yerli tikinti materiallarından istifadəyə üstünlük verilir. Qısa müddət ərzində həyata keçirilən tədbirlər belə deməyə əsas verir ki, obyektlərin tikintisi nəzərdə tutulmuş vaxtda başa çatdırılacaq.

Şərur şəhərinin bir neçə ünvanında istirahət guşələrinin yenidən qurulması və genişləndirilməsi şərurlular tərəfindən onlara göstərilən qayğı kimi dəyərləndirilir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Şərur Rayon İdarəsinin sahə rəisi Mirabdulla Seyidovdan aldığımız məlumata görə, rayon mərkəzinin dəmiryol stansiyası ərazisində 6250, inşası aparılan bazar ərazisində 3080, şəhər univermağının yaxınlığında 1369, Təqaüdçülər klubu ərazisində 2350 kvadratmetr ərazidə həmin tədbirlər davam etdirilir. Onu da qeyd edək ki, Təqaüdçülər klubunun qarşısında musiqili fəvvarə də inşa olunur. İnşaatçılara yaradılmış şərait, onların fəallığı belə deməyə əsas verir ki, yaxın vaxtlarda şərurluların müxtəlif ünvanlarda istirahət etmək imkanları daha da genişlənəcək.

Rayondakı inşaat obyektləri müxtəlif təyinatlıdır. Belə ki, “N” hərbi hissə üçün infrastruktur obyektlərinin “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının inzibati binasının, Şərur şəhərində zirzəmisi ilə birlikdə 6 mərtəbədən ibarət olan 40 mənzilli yaşayış binasının, Dizə kəndi ərazisində gücü saniyədə 271 litr olan sutəmizləyici qurğu və 27 min kubmetr həcmində 3 ədəd su anbarının, rayon mədəniyyət sarayının, Şəhriyar kəndində uşaq musiqi məktəbi binasının, Avtovağzal binasının tikintisi, 7 yaşayış məntəqəsini birləşdirən 21 kilometr uzunluğunda yolda inşaat işləri davam etdirilir.

Cəlilkənddə içməli su xəttinin, Şərur şəhəri ilə Naxçıvan-Sədərək magistral yolunu birləşdirən avtomobil yolunun çəkilişi aparılır. Şərur şəhərinin Nizami küçəsində isə 35/10 kilovoltluq “Subartezian” yarımstansiyasının qurulması rayonun quruculuq xəritəsini daha da genişləndirib.

Həyata keçirilən bütün layihələr bir məqsədə ünvanlanıb: şərurluların yaşayış tərzini yaxşılaşdırmaq, insanların layiq olduğu səviyyədə yaşamasına nail olmaq.

✍ Muxtar MƏMMƏDOV

## Elin sərvəti toplanır

Mühüm strateji məhsul olan taxıl istehsalının həcmi Kəngərli rayonunda da ildən-ilə artırılır. Cari ilin məhsulu üçün rayonda 3 min 250 hektar sahədə payızlıq buğda, 2 min 597 hektarda isə payızlıq arpa, bu ilin yazında isə 58 hektarda yazlıq arpa əkilib. Beləliklə, 2020-ci ildə biçin keçiriləcək taxıl zəmiləri 5 min 905 hektara çatdırılıb. Bu isə cari ildə buğda və arpa istehsalının ötən ildəkindən daha çox olacağına zəmanət verir. Ötən dövrdə taxıl əkilən sahələr əvvəlcədən mineral və üzvi gübrələrlə zənginləşdirilib, becərmə tədbirləri və suvarma vaxtlı-vaxtında aparılıb, nəticədə, sahələrdə bol məhsul yetişdirilib.



Artıq bir neçə gündür ki, rayonda taxıl biçininə başlanılıb. Taxılın optimal müddətdə və gecikdirmədən biçilib-döyülməsi və daşınması üçün əvvəlcədən bütün tədbirlər görülüb. Əkinçilər yaxşı bilirlər ki, yığım kampaniyasının mütəşəkkil keçirilməsi məhsuldarlığın yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir. Ona görə də zəmilərə çıxarılan 18 kombayn və kifayət qədər taxıldaşıyan maşının gücündən səmərəli istifadə olunur.

Bu günədək 698 hektar sahənin taxılı biçilib, hər hektardan orta hesabla 21,1 sentner, ümumilikdə, 1474 ton məhsul əldə edilib. Hazırda rayonun Qıvraq qəsəbə, Böyükdüz, Xok, Yeni Kərki, Xıncab, Yurdçu, Qabıllı və Şahtaxtı kəndlərində biçin sürətlə aparılır.

Qeyd edək ki, taxıl yığımının optimal müddətdə və itkisiz başa çatdırılması üçün rayonda əvvəlcədən bütün hazırlıq tədbirləri görülüb. Bu məqsədlə rayon İcra Hakimiyyətində xüsusi qərargah yaradılıb və bu qərargah biçinin gedişini gündəlik nəzarətdə saxlayır. Kənd əməkçilərinə və fermerlərə hərtərəfli köməklik göstərir. Biçinin optimal müddətdə keçirilməsi və məhsulun itkisiz toplanması üçün kifayət qədər kombayn vardır. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti Kəngərli Rayon Bazasının kombaynları, eləcə də məhsulun sahələrdən daşınması, küləşin kiplənib götürülməsi üçün nəzərdə tutulan texnikalar baxışdan keçirilib, zəruri ehtiyac duyulan maşın və mexanizmlər təmir olunaraq saz hala gətirilib, kifayət qədər ehtiyat hissə və yanacaq tədarükü görülüb. Bu da belə deməyə əsas verir ki, elin sərvəti sayılan taxılın tədarükü mütəşəkkilliklə həyata keçiriləcək.

**Babək İSMAYILOV**

## Şagirdlərimiz olimpiadada yüksək nəticə göstərib

*Muxtar respublikada təhsilin inkişafı istiqamətində görülən tədbirlər istedadlı uşaqların aşkar olunmasına, şagirdlərin müxtəlif fənlərə olan marağının artırılmasına öz töhfəsini verib, keçirilən fənn olimpiadaları maraqlı yarışmalar, fərqli nəticələr və yüksək fəallıqla yadda qalıb.*

İstedadlı şagirdlərin aşkara çıxarılmasında və təlimdə sağlam rəqabətin yaradılmasında respublika fənn olimpiadasının da müstəsna əhəmiyyəti olmuşdur. Olimpiada 8 fənn – Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, informatika, tarix və coğrafiya fənləri üzrə keçirilib. Bilik yarışına xüsusi istedada və hazırlığa malik IX, X və XI sinif şagirdləri qatılıblar. Olimpiadanın şəhər-rayon mərhələsində 781 şagird iştirak edib ki, onlardan da 218-i yarımfinal, 87-si isə final turuna vəsiqə qazanıb.

İyunun 5-də və 9-da keçirilən final mərhələsində 87 şagird öz bilik və bacarığını nümayiş etdirib. Olimpiadanın nəticələrinə əsasən muxtar respublikanın şagirdləri olimpiadada yüksək nəticə göstərib. Şagirdlərin 4-ü qızıl, 7-si gümüş, 13-ü isə bürünc olmaqla, ümumilikdə, 24 medal qazanıb. Uğur qazananların 5-i IX sinif, 4-ü X sinif, 15-i isə XI sinif şagirdidir. Həmin medalların 13-ü Naxçıvan şəhərində 11-i isə rayonlarda fəaliyyət göstərən, Təhsil Nazirliyinə birbaşa tabe olan məktəblərin payına düşür.

Muxtar respublikada yaradılan müasir tədris şəraiti gələcəkdə də şagirdlərin uğur qazanacağına əminlik yaradır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Əzm, sədaqət və sevgi olan yerdə...



*İnsanı ovsunlayan özünəməxsus təbiət mənzərələrini – yaşıl çəmənlikləri, taxıl zəmilərini, əkin sahələrini izlədikcə düşünürsən ki, sanki ən istedadlı rəssam fırçasını sevgi ilə öz tablosunda gəzdirərək şah əsərini yaradıb. Əsrlərə şahidlik edən qırmızımtıl təpələri, uzaqdan Darıdağın əsrarəngiz görünüşünü izləyə-izləyə Culfa şəhərinə doğru irəliləyirik. Şəhərə çathaçatda qeyri-iradi qürur hissi ilə düşüncələr aləminə qərq oluram. Bunun səbəbi hələ uzaqdan gözəçarpan yaraşıqlı binalar, abad, rahat yollar, illərlə çəkilən zəhmətin təntənəsidir. Bu təntənə müstəqilliyimizin bizə bəxş etdiyi bir nemətdir. Öz-özümə deyirəm: nə yaxşı ki, müstəqil Azərbaycan dövlətinin vətəndaşlarıyıq. Çünki bu gün bu diyarda aparılan bütün işlərin əsas hərəkətverici qüvvəsi insan amilidir və bu da təbii olaraq onların rahat və firavan yaşayışına xidmət edir. Bu mənada, hər il digər bölgələrimizdə olduğu kimi, Culfa şəhərində də sosial obyektlərin tikilərək və ya təmir olunaraq sakinlərin istifadəsinə verilməsi heç də təsadüfi deyil.*

Culfa şəhərinə çatırıq... Bizi şəhərin girişində salınmış Bayraq Meydanı və burada əzəmətlə ucalan ayulduzlu bayrağımız qarşılayır. Davamlı inkişaf mərhələsini yaşayan muxtar respublikanın bütün şəhər, rayon və kəndləri aparılan abadlıq, quruculuq işləri nəticəsində gündən-günə daha da gözəlləşir. Rastlaşdığım mənzərələrdən yaranan bu – qənaət şəhərdə ilk gördüklərim qarşısında öz təsdiqini tapır. Bəli, indi muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Culfada da əhalinin rahatlığı, sərbəst işləməsi və yaşaması üçün hər cür şərait yaradılıb, infrastruktur yenilənib, müxtəlif obyektlərin tikintisi isə davam edir...



Bu yaxınlarda yenidənqurma işlərindən sonra istifadəyə verilən Culfa şəhərinin Heydər Əliyev prospekti də sadaladıqlarımızın əyani sübutudur. Ulu öndərin adını daşıyan prospekt, bir-birinin ardınca istifadəyə verilən əsaslı şəkildə yenilənmiş ictimai və inzibati binalar, sosial obyektlər diqqətimizi çəkir.

Culfa şəhərinin ən gözəl ünvanı – ümummilli lider Heydər Əliyevin adını daşıyan prospektboyu hökm sürən səliqə-sahman, abadlıq işləri göz oxşayır. Məlumat üçün bildirək ki, prospektdə yenidənqurma çərçivəsində 2700 metrlik avtomobil yolu genişləndirilərək yeni asfalt örtük salınıb, 78 su keçidi qoyulub. 4 zolaqlı yolda 58 yeni işıqlandırma dirəyi quraşdırılıb, kənarlarda səki salınıb, 2053 metr uzunluğundakı suvarma sistemləri yenisi ilə əvəz olunub. Prospektdəki 7 ictimai yaşayış binasının fasadı, fərdi yaşayış evlərinin isə çardaq və hasarları təmir edilib. Rayonun əksər idarə, müəssisə və təşkilatları bu ünvanda yerləşir. Şəhər mərkəzindəki digər küçələrdə də son illərin quruculuq ərməğanları, salınmış rahat yollar, parklar, yaşayış binaları, bazar, ticarət obyektləri qədim Culfa şəhərinə gözəllik bəxş edib. Burada olduğum müddətdə, sanki şəhərin simasında qədimliklə bu günün mənzərəsini bizə göstərən güzgüyə baxdığımı düşünürəm.

Rayon mərkəzində yaşayan insanlarla həmsöhbət olmaq üçün prospektboyu irəliləyirəm. Yaşayış binalarının həyətlərində oynayan uşaqların şən gülüşləri ətrafa yayılır. Bir qədər bu ürəkaçan, gözoxşayan mənzərələri seyr etdikdən sonra nəzərim yaxınlıqdan keçən qadına yönəlir. Elə ilk həmsöhbətim də məhz həmin xanım olur. Yaxınlaşıb hal-əhval tutduqdan sonra öyrənirəm ki, müsahibim prospektdə yaşayan müəllim Xuraman Səmədovadır. Onun dediklərindən:

– Günü-gündən gözəlləşən Culfa şəhərində inşa edilən bir-birindən yaraşıqlı binalar, salınan rahat yollar, yaşıllıqlar hər bir sakini qəlbən sevindirir. Ötən günlərdə prospektimizdə də aparılan yenidənqurma işləri sevincimizi ikiqat artırıb. Culfamızın siması elə gözümüz önündəcə diqqət, qayğı və çəkilən zəhmət sayəsində tamamilə dəyişilib.



Bütün bunların qarşılığında rahat yaşayışımız naminə yaradılanları qorumağı, onlardan səmərəli istifadə etməyi mənəvi borcumuz hesab edirik.

Söhbətimizə qoşulan Nisə Cəfərova minnətdarlıq edərək bildirir ki, biz blokada vəziyyətində çətin günlər yaşamışıq. Bu gün abad olan prospektimizin bir vaxtlar hansı vəziyyətdə olduğunu adam indi xatırlamaq belə, istəmir. Bu səbəbdəndir ki, Culfanın bu gününü görməyin bizim üçün nə demək olduğunu sözlə izah etmək çox çətindir. Onu da qeyd edim ki, bu gün prospektimizdəki, hər bir şəraiti olan müasir bağça və məktəb təlim-tərbiyə, təhsil işinə mütləq əhəmiyyətli təsir göstərəcək. Sakinlərimiz bu gün rahat yollar üzərində addımlayırlar. Təbii ki, bu bizim üçün ən böyük xoşbəxtlikdir. Bu quruculuq işləri təkcə prospektimizi deyil, bütün Culfa rayonunu əhatə edir. Qurub-yaradan əllər var olsun!

Digər şəhər sakini, ziyalı Yusif Cəfərov isə söyləyir: – Bildiyiniz kimi, memarlıq inciləri, tarixi yerləri, şəfalı suları olan qədim Culfa qonaqlı-qaralıdır. Buraya üz tutan turistlərin sayı da ildən-ilə artır ki, bunun da səbəbi gözəlləşən şəhərimizdən alınan təəssüratlardır. Bu gün rayonumuzun ən ucqar dağ kəndində belə, aparılan işlərin nəticəsini aydın şəkildə görürüksə, deməli, burada inkişafdan qürur duymaq olar. Prospektimizdə də görülən işlər bu inkişafın bir hissəsidir. Biz sakinlər qurub-yaradanlara minnətdarıq və yaxşı bilirik ki, bütün bunların hamısı qədim bölgənin müasirləşməsi, yeniləşməsi, insanların rahatlığı baxımından atılan uğurlu addımların zəfər səsidir.

*Culfada gördüklərimizdən və söhbətlərimizdən belə nəticəyə gəldik ki, muxtar respublikamızdakı bütün bu işlər qurub-yaradanlar tərəfindən əzm, sədaqət və sevgi ilə görülür və bunu hər bir vətəndaş dərindən dərk edir, daha xoşbəxt gələcəyə inanır. Bir sözlə, əzm, sədaqət və sevgi olan yerdə baxışlar üfüqdə daha işıqlı, parlaq sabahlara çevrilir...*

✍ **Pərviz HACILI**

*Dövlət proqramı icra olunur*

# Meyvəçiliyin şöhrəti özünə qaytarılıb

*Son illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə bağlı aparılan uğurlu dövlət siyasətinin tərkibində meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi ilə bağlı ardıcıl olaraq qəbul edilmiş Dövlət proqramları da var. Məlumdur ki, qədim diyarımızda təsərrüfatçılıq ənənələri özünəməxsusluğu ilə tarixən seçilib və keçmişdən bu günədək hər iki sahə yerli əhalinin əsas məşğuliyyət növlərindən olub. Buna görə də meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramları muxtar respublikada əhalinin ənənəvi əkinçilik sahələri ilə məşğulluğunun təmin edilməsinin, eyni zamanda muxtar respublikanın sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanmasının əsasını qoyub.*

Qeyd edək ki, həm 2012-2015-ci, həm də 2016-2020-ci illəri əhatə edən proqramların icrası Naxçıvanda hər iki sahə üzrə ixtisaslaşmanın elmi şəkildə tətbiqini ön plana çıxarıb. Bu amil əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə ilə yanaşı, meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsində ənənəvi üsullara üstünlük verilməsinə və əkinçilikdə yeni metodların tətbiqinə də geniş imkanlar açıb. Nəticədə, muxtar respublikada ildən-ilə meyvəçilik və tərəvəzçilikdə dinamik inkişafın müşahidə edilməsi bu sahələrin iqtisadiyyatda rolunu artırır. Təbii ki, bu uğurlarda hər bir bölgənin öz payı var. Ordubad rayonu isə tarixən Naxçıvanda meyvəçiliyin əsas mərkəzi kimi tanınır. Burada yetişdirilən meyvələr hər zaman öz dad-tamı ilə seçilib, ölkə və xarici bazarlara çıxarılaraq satılıb. Rayonun bütün yaşayış məntəqələri üçün xarakterik olan meyvə tinglərinin əkilib-becərilməsinə ordubadlı bağbanlar xüsusi önəm veriblər. İldən-ilə bağ sahələri genişləndirilib, yerli meyvə sortlarının yaradılması diqqətdə saxlanılıb. Beləliklə, meyvəçilik rayona böyük şöhrət qazandırıb. Burada yetişdirilən məhsullara vaxtilə keçmiş SSRİ-nin





müttəfiq respublikalarında da tələbat olub. Lakin, təəssüf ki, ötən əsrin 80-ci illərinin sonlarında baş verən məlum hadisələr Ordubadda meyvə bağlarının kökünə balta çalmış, hektarlarla meyvə bağları sıradan çıxmışdı. Bir neçə il sonra müstəqilliyimizin bərpası və muxtar respublikada bərqərar olunan ictimai-siyasi sabitlik, aparılan aqrar islahatlar nəticəsində qədim meyvəçilik yurdunda bu sahəyə maraq yenidən artmağa başladı. Yeni meyvə bağlarının salınması günün reallığına çevrildi.

Rayonda meyvəçiliyin və tərəvəzçiliyin inkişafında yeni mərhələ isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilən “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın qəbul edilməsindən sonra başlanıb. Həmin dövlət sənədi əhalinin bu ənənəvi təsərrüfat sahəsinə marağının artmasında mühüm rol oynayıb. Məlumat üçün qeyd edək ki, 2012-ci ildə rayon üzrə 679,31 hektar bağ mövcud olub, həmin bağlardan 2640,6 ton meyvə yığılıb. Həmin il rayonda “Naxçıvan-Kredit” Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 624 nəfərə 654 min 200 manat, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən 11 nəfərə 15 min 500 manat, o cümlədən meyvə bağı salınması üçün 7 nəfərə 98 min manat, limon istixanası üçün 4 nəfərə 57 min manat kredit verilib. Nəticədə, müxtəlif mənbələrdən verilən kreditlər hesabın 2013-cü ildə rayonda meyvə bağlarının ümumi sahəsi 682,31, 2014-cü ildə isə 693,31 hektara çatdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə təsdiq olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası da Ordubad rayonunda uğurla davam etdirilir. Rayonun müxtəlif ərazilərində salınmış meyvə bağları hesabına 2019-cu ildə meyvə bağlarından 5616,5 ton meyvə tədarük edilib. Rayonun üzüm bağlarından isə ötən il 299 ton məhsul yığılıb. Birinci Dövlət proqramının icrası dövründə rayonda tutumu 150 ton və 100 ton olan iki soyuducu anbar yaradılıb. 2020-ci ilin yanvar ayına olan statistik məlumata görə, rayonda, ümumilikdə, 745 hektar meyvə bağı var ki, bunun da 721 hektarı barverəndir.

Proqramın icrası çərçivəsində təkcə bu ilin mart-aprel aylarında rayonda keçirilən yaz iməcilikləri zamanı 9 hektar ərazidə yeni bağ salınıb, 9,5 hektar bağda isə bərpa işləri aparılıb. Həmin vaxt 8700 meyvə tingi, 818 meyvə ağacı, 6960 gül kolu, 330 həmişəyaşıl ağac əkilib. Naxçıvan-Ordubad magistral avtomobil yolunun kənarlarındakı ərazilərdə, Gilançay vadisində, Sabirkənd, Baş Dizə, Vənənd, Əylis kəndlərində onlarla hektar, Şəhriyar qəsəbəsində isə 2 hektar sahədə meyvə bağı, Əylis düzü ərazisində 1 hektarda üzüm bağı salınıb. Onu da qeyd edək ki, Əylis düzü ərazisində yeni qızılgül sahəsi də yaradılıb.

Göründüyü kimi, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı istiqamətində görülən işlər ordubadlı torpaq mülkiyyətçiləri üçün yeni imkanlar açıb. Yuxarıda da qeyd etdiyimiz kimi, Ordubadın qədim meyvəçilik tarixi var. Meyvəçiliyin şöhrətinin geri qaytarılmasında, əhalinin daha yaxşı gəlir sahibi olmasında, insanların məşğulluğunda mühüm əhəmiyyət kəsb edən bu sahənin inkişafına yaradılan hərtərəfli şərait tezliklə daha böyük nəticələr əldə olunmasına imkan verəcək.

✍ **Gülcamal TAHİROVA**

## “Mühasibat uçotu standartları” adlı videotəlim keçirilib

*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində keçirilən videotəlimə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi sistemində fəaliyyət göstərən 10 maliyyə və mühasibatlıq işçisi cəlb edilib.*

Təlimin məqsədi mühasibatlıq sahəsində çalışan işçilərin peşə hazırlığının təkmilləşdirilməsi və biliklərinin qiymətləndirilməsindən ibarətdir.

Tədbiri giriş sözü ilə Maliyyə Tədris Mərkəzinin əməkdaşı Zəhra İsmayılova açaraq keçirilən təlimin aktuallığı və mahiyyəti barədə məlumat verib.

Sonra Maliyyə Nazirliyi Aparatının baş məsləhətçi-mühasibi Məmmədnağı Əkbərov tərəfindən “Hesablar planı və müxabirləşmələr”, “Maliyyə hesabatlarının hazırlanması” adlı mövzularla bağlı təlim keçirilib. Memorial order formaları, təşkilatlarda kassa əməliyyatları üzrə sintetik uçotun aparılması, uzunmüddətli və qısamüddətli aktivlər və sair mövzularla əlaqədar slaydlarla zənginləşdirilmiş məlumatlar diqqətə çatdırılıb, praktik tapşırıqlar verilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Milli-mənəvi dəyərlərimizin ata ocağıdır




***Keçmişini, irsini, tarixini, mədəniyyətini qoruyub yaşadan, əyilməz vüqara, sınmaz qürura, əzəmətli qüdrətə sahib bir xalqıq. Güclüyük, əzmkarıq, nüfuzluyuq. Milli-mənəvi dəyərlərimizə bağlı, humanizm, tolerantlıq, xeyirxahlıq, əməlisalehlik, mübarizlik kimi nəcib xüsusiyyətlərin təcəssümüyük. Fitrətimiz müdrik və əqidəlidir, yaradılışdan nurluyuq. Nəsildən-nəslə ötürülən gücümüz, bitib-tükənməyən sərvətlərimiz vardır. Biz keçmişin ruhaniyyətinin xeyir-duasını almış millətik. Müdrik qocaların nəsihətləri ilə böyüyüb, nənələrimizin, babalarımızın qoyduqları izlə bu günə gəlib çıxmışıq. Onları mənimsəyib qorumaq üçün cəsarətlə mübarizə aparmışıq. Nənələrimizin hördüyü min ilməli, min naxışlı xalıları, babalarımızın təri hopmuş saxsı qabları, qəlbimizin və ruhumuzun mayası muğamları, çörəkağacı dəyirmanlarımızı, müqqədəs, pak məscidlərimizi, sağlam cəmiyyətin təməlini təşkil edən ailə ənənələrimizi qoruyub bu günə qədər yaşatmışıq. Onlar bir kitab olub, əl-əl gəzir. O kitab ki gələcək üçün vacib, gənclik üçün ən lazımlı mayakdır. Onu təkrar-təkrar oxumaq, özümüzdən sonrakı nəsillərə ötürmək ən ümdə vəzifəmizdir.***

Bir baxın, uzun əsrlərə söykənən şanlı tariximizin, milli-mənəvi simamızın əksi olan, kimliyimizi, mədəniyyətimizi, adət-ənənələrimizi təsvir edən güzgüyə. Xalqımızın vətənpərvərliyini, qonaqpərvərliyini, duz-çörəyə hörmətini, dövlət atributlarımıza, milli varlığımızın təsdiqi dilimizə, başda Novruz olmaqla, digər bayramlarımıza hədsiz sevgisini, bağlılığını görəcəksiniz. El mərasimlərində hamılıqla iştirak edilməsinə, xalq oyunlarımızın, milli musiqimizin, dekorativ-tətbiqi sənət nümunələrimizin yaşadılmasına, müqəddəs dinimiz İslamın bəşəri, ali hissləri tərbiyə edən dəyərlərinin icrasına şahid olacaqsınız. Həmin dəyərlərdir ki, tarixi Daş dövrü insanlarının yaşayış yeri kimi məşhur olan Azıx mağarasına qədər uzanır, Qobustan qayaüstü rəsmləri, Gəmiqaya petroqliflərində aydınlıq tapır. Bu güzgü həm də Qədim “Kitabi-Dədə Qorqud” və “Koroğlu” dastanlarımızdakı həyat dərslərindən, müqəddəs kitabımız “Qurani-Şərif”də buyurulanlardan, ulu Nizami, Nəsimi, Xətai yaradıcılığında həqiqi sevgidən, ədalətdən dosta sədaqətdən, Cəlil, Cavid, Araz qələmində Vətənə, millətə sevgi hisslərindən danışır. Baba Nemətullah Naxçıvani təfsirlərində dinə hörmətdən, Əcəmi Naxçıvani yaradıcılığında mədəni dəyərlərdən, Cavanşir, Babək, Cavad xan, Mübariz kimi oğullarımızın, Tomris, Sara xatın, Nigar, Həcər və onlarla cəsur qadınlarımızın timsalında qəhrəmanlıq, mərdanəlik, sadiqlik kimi nəcib insani keyfiyyətlərdən, müstəqillik və azadlığın dəyərindən söhbət açır... İndiki nəsil məhz bu dərslərlə böyüyür, milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunur. Azərbaycançılıq ideologiyasına sadiq, multikulturalizm və tolerantlıq ideyalarının yaşadıldığı müasir, eyni zamanda milli dəyərlərə, milli köklərə bağlı sağlam cəmiyyətdə... Əsrlərboyu müxtəlif sarsıntılara, repressiyalara məruz qalmasına baxmayaraq, milli kimliyini, şərəf və heysiyyətini, dilini, mədəniyyətini, milli ənənələrini qoruyan müqəddəs bir Vətənin övladı kimi... Bundan böyük fəxr, bundan böyük səadət ola bilərmi?..





*“Milli geyimlər” festivalı – 2018-ci il*

Təkcə müstəqilliyimizin banisi yox, həm də tarixi-mədəni irsimizin, milli dəyərlərimizin hamisi ulu öndərimiz Heydər Əliyevin müdrik siyasəti ilə təcəlla tapıb milli dəyərlərə sadiqlik prinsipi. Dahi liderin şərəfli və mənalı ömür yolu, qüdrətli siyasi fəaliyyəti boyu milli-mənəvi dəyərlərə bağlılığının, diqqət və qayğısının şahidi oluruq. Onun xalq qarşısında çıxışlarında, müsahibələrində, imzaladığı dövlət sənədlərində saxlıdır bu qayğı. Ölkəmizdə geniş muzeylər şəbəkəsinin yaradılmasında, folklorumuzun daha dərindən araşdırılması və inkişafında, milli dəyərlərimizin təbliğində, tədqiqindədir. Milli qəhrəmanlarımızın adlarının əbədiləşdirilməsində, tarixi yer adlarının bərpasında, tarixi filmlərin çəkilməsində, böyük sərkərdələrimizin həyat və fəaliyyətlərinin öyrənilməsində, tarixdə ikinci dəfə məhz Naxçıvanda yüksəldilən dövlətçiliyimizin əsas atributlarından biri olan üçrəngli bayrağımızın, himnimizin, gerbimizin, milli-mənəvi sərvətimiz Azərbaycan dilinin Konstitusiyamızda əksini tapmasındadır. Vaxtilə yasaq olunan Qurban, Ramazan, Novruz kimi milli və dini bayramlarımızın, adət və mərasimlərimizin xalqımıza qaytarılmasında, dini ibadətgahlarımızın, abidələrimizin bərpa və ya yenidən inşasında, görkəmli ədəbiyyat, elm xadimlərinin, qəhrəmanlıq dastanlarımızın yubileylərinin böyük təntənə ilə keçirilməsində, söz və mətbuat azadlığının təmin olunmasındadır. Bütün dünya azərbaycanlılarını Azərbaycançılıq ideologiyası ətrafında birləşməyə, öz dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmağa, xüsusilə gənc nəsli bu ruhda tərbiyə etməyə səsləyişindədir bu qayğı. Milli yaddaşın bərpasına, milli köklərə qayıdışın sürətləndirilməsinə, milli-mənəvi dəyərlərimizin təbliğinə geniş imkanlardadır. ***“Hər xalqın öz adət- ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik”***, – deyən ümummilli liderimizin zəngin dövlətçilik ənənələrinin ölkəmizdə layiqincə davam etdirilməsindədir.

Beləcə bu müdrik siyasətin işığında dünəni yaşadılan, bu günü gələcəyə daşınan diyara çevrilən ulu Naxçıvan bu gün xalqımızın uzunəsrlik sosial həyat tərzini, dini-ideoloji dünyagörüşlərini, inanclarını və adət-ənənələrini özündə daşıyan milli-mənəvi dəyərlərimizin ata ocağıdır. O ocaq ki hər addımı, hər qarışı tarixdən danışır. O ocaq ki Naxçıvan şahlığı, Azərbaycan Atabəylər dövləti, Naxçıvan xanlığının inzibati mərkəzi kimi, müdafiə qabiliyyəti və tarixi ərazisi ilə seçilən Araz-Türk Respublikası ilə qədim dövlətçilik ənənələrimizin əsas məkanıdır. Boyalı qablar mədəniyyətinin, toxuculuğun, metalişləmənin, dulusçuluğun, zərgərliyin, misgərliyin, ipəkçiliyin, xalçaçılığın və bunun kimi onlarla sənətkarlıq sahələrinin yaradılış, inkişaf yeridir. O ocaq ki qadına, anaya hörmətin, məhəbbətin təzahürü olan Möminə xatın türbəsi, Kəngərlilərin, Naxçıvanskilərin mübarizliyinə, qəhrəmanlığına şahidlik edən Xan sarayı, öz məğrurluğu, yenilməzliyi ilə 14 il Teymurləngə meydan oxuyan Əlincə qalası, insanlığın ikinci ulu əcdadı Nuh Peyğəmbərin adını daşıyan türbə, birlik simvoluna çevrilən festivallar məkanı Naxçıvanqala, hər il yüzlərlə adamın ziyarətgah yeri, dini dəyərlərimizin yaşadıldığı müqəddəs Əshabi-Kəhf, dünya mədəniyyətinə gözəl nümunələr bəxş edən Gəmiqaya abidəsi və saymaqla bitməyən yüzlərlə tarixi, dini mədəniyyət nümunələri ilə keçmişə qayıdır, tariximizi vərəqləyirik. Görürük ki, bir vaxtlar Avropa tarixçilərinin, səyyahlarının düşüncələrinin baş qəhrəmanına çevrilən diyarımızın sakinləri 70 il sovet imperiyasının buxovları altında əzildiyi, 1990-cı illərdən ermənilər tərəfindən blokadaya salındığı, müstəqillik uğrunda mübarizələrin meydanı olduğu vaxtlarda belə, öz tarixi köklərini unutmayıb, milli-mənəvi dəyərlərinə sahib çıxıb. Çıxın, Gənclərin, İslam Mədəniyyətinin Paytaxtı olan bu şəhəri, rayonlarımızı, kəndlərimizi qarış-qarış gəzin. Təmənnasız baxa biləcəyiniz Heydər Əliyev Muzeyi, Dövlət Bayrağı, Tarix, Xalça və digər muzeyləri, görkəmli şəxsiyyətlərin ev-muzeyləri, yurdumuzun hər bir bölgəsində fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeyləri, Xanəgahı, Buzxanaları, qədim İmamzadə, məscid və pirləri gəzdikcə bu diyarda dövlətçiliyə sədaqətin, varislik irsi bayrağa hörmətin, xalqın tarixini yazan görkəmli ziyalılara, ədəbiyyatşünaslara diqqətin, müxtəlif sənət sahələrinin fəaliyyətinə qayğının şahidi olacaqsınız. Milli Dəyərlər Muzeyində, “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzində, Naxçıvan Dövlət Rəsm Qalereyasında, Naxçıvan Dövlət Filarmoniyasında bu diyarın nadir, orijinal naxış kompozisiyasına malik xalçalarına, özünəməxsus kişi və qadın milli geyimlərinə, əsrarəngiz təbiətinin rəng qatdığı mətbəx nümunələrinə, rəngarəng və coşqun rəqslərinə, qədim musiqi alətlərinin ifasına heyran qalacaqsınız. Yallı, xüsusilə Şərurun el yallılarını, Bəhruz Kəngərli, İbrahim Səfi yaradıcılığını izləyəndə də, Dədə Qorqudun, Koroğlunun, Babəkin heykəlləri ilə igidlik, qəhrəmanlıq, azadlıq salnaməsini dinləyəndə də, digər ənənəvi festivallarla yanaşı, “Naxçıvan – bəşəriyyətin beşiyi” Beynəlxalq Rəsm, “Milli geyimlər”, Yallı kimi müxtəlif festivalların iştirakçısı olanda da bu diyarda folklorumuzun, etnoqrafiyamızın, rəssamlıq sənətinin zənginliyinə, milli-mənəvi irsimizin yaşadılmasına, təbliğinə şahid olacaqsınız. “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri”nin YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer almasını, bununla da ölkəmizdə milli dəyərlərimizin qorunmasının, yeni nəsillərə çatdırılmasının vacibliyini görəcəksiniz. Zaman-zaman diyarımızda aparılan uğurlu dövlət siyasəti nəticəsində torpaqlarımız kimi qədim mədəniyyət nümunələrinə də göz dikən ermənilərin milli-mənəvi dəyərlərimizlə bağlı uydurma iddialarını puç edən alimlərimizlə bir daha fəxr edəcəksiniz.

Tarixi köklərimizin mirası olan mağaraları, ilk insan məskənləri, möhtəşəm qalaları, qayaüstü rəsmləri, daş qoç heykəlləri və türbələri ilə diqqəti cəlb edir Naxçıvan. Bilirsinizmi niyə? Çünki tariximizə dəyər verilir, son illər 1200-dən çox abidə qeydə alınaraq pasportlaşdırılıb, 70-dən artıq abidəyə ikinci həyat verilib bu diyarda. Qədimliklə müasirliyin vəhdəti diyarımızı səyahət turizminin ideal məkanına çevirib. Bu diyara gələn hər hansı bir turist Cəmşid Naxçıvanski Muzeyinə getməklə həm Naxçıvanın tanınmış hərb xadimlərinin irsini öyrənəcək, həm də Milli Dəyərlər Muzeyinə baş çəkməklə qədim diyarımızda qorunub, yaşadılan milli dəyərlərlə, Naxçıvan şəhər buzxanasını ziyarət etməklə xalqımızın qədim tarixini, burada yerləşən “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi vasitəsilə kulinariya mədəniyyətimizlə də tanış olacaq. Görürsünüzmü, diyarımızda bir bina daxilində nə qədər milli-mənəvi dəyər nümunəsi qorunub saxlanılır. 2012-ci ildə “Milli dəyərlər ili” nə həsr olunmuş tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Biz həyata keçirilən tədbirləri milli dəyərlərin öyrədilməsi və yaşadılması istiqamətində görülən işlərin yekunu yox, başlanğıcı hesab edirik. Bu sahədə görülən işlərlə kifayətlənmək olmaz. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması hər birimizin mühüm vəzifəsi olmalıdır. Biz öz tarixi dəyərlərimizə sahib çıxmasaq, ona başqaları sahib çıxacaqdır. Xalqımızın gələcəyini düşünürüksə, bu gələcəyi möhkəm təməllər – milli dəyərlər üzərində qurmalıyıq”.*** Bu gün Naxçıvan tarixinə, arxeologiyasına, etnoqrafiyasına və folkloruna dair çoxsaylı elmi-kütləvi nəşrlər, televiziya filmləri, beynəlxalq simpoziumlar, Xalq yaradıcılığı günləri ilə milli-mənəvi dəyərlərimiz yaşadılır, gələcək nəsillərə ötürülür...



Milli-mənəvi irsimizi varislik prinsipi ilə yaşatmaq və zənginləşdirmək məramını, qayəsini həm də doğma yurdumuza, onun füsunkar təbiətinə, təbii sərvətlərinə sahiblik hissi təşkil edir.

Ağac əkmək, yaşıllıq salmaq, torpağa toxum səpmək, onu əkib-becərmək kimi tarixən babalarımızın ən gözəl adətlərini də yaşatmağa çalışırıq. Bir vaxtlar elektrik enerjisinin, təbii qazın yoxluğu səbəbindən qırılan minlərlə qocaman ağacın, pöhrələrin əvəzində bu gün hər səkisində, hər küçəsində baş-başa verən ağacları, rəngarəng gülləri ilə cənnəti xatırladan yaşıllıqlar diyarını görəcəksiniz. Bu diyarın təmiz havası, gözəl təbiəti, səliqəli küçələri bura gələnləri heyran edir. Bunun səbəbi ana təbiətimizə göstərilən diqqət və qayğıda, digər tərəfdən bu diyarın insanlarının Vətənə, torpağa məhəbbətində, ətraf mühitə və təbii sərvətlərə sevgisində gizlidir. Məhz bu müdrik və savab əməllər Naxçıvanımızı milli və mənəvi dəyərlərimizin köksündə ucalan müqəddəs türk yurdu kimi dünyaya tanıdır.

Əsrlərdən gələn, ruhumuzda yaşadılan dəyərimiz “könüllülük” adlı bir təmtəraqla daha da zənginləşir. Naxçıvanlıların məişətində, mədəniyyətində, adət-ənənələrində, əmək, zəhmət nəğmələrindədir könüllülük izləri. İnsanlarımızın həmişə xeyirdə-şərdə iştirakında, ictimai işlərdə heç bir fərdi mənfəət güdmədən bir-birinə dəstək olmasındadır. Birlikdə ev tikib, torpağını şumlayan ataların zəhmətində, toplaşıb birlikdə təndir salıb çörək bişirən, Novruza şəkərbura naxışlayan, təmizlik işləri görən anaların kollektiv əməyindədir. Həmin ana-ataların övladlarıyıq ki, bu gün də könüllülüyü bir dəyər kimi yaşadırıq. Bir ağac əkərək ekologiyamıza fayda verməklə, ahıllara qayğı və ehtiram göstərməklə, bütün işlərdə, ən çətin məqamlarda birlik, bərabərlik nümayiş etdirməklə... 2020-ci ilin “Könüllülər ili” olması xalqımızın əsrlərboyu qoruyub yaşatdığı xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrinə töhfədir. Həm də can-dildən çalışan, Vətənə sevgisini sözdə deyil, işdə göstərən gənclərin fəaliyyətləri üçün böyük stimuldur.

Laylalarımızdan, tapmacalarımızdan, nağıllarımızdan, atalar sözlərimizdən, bayatılarımızdan öyrəndik milli-mənəvi dəyərlərimizi. Bir vaxtlar şifahi xalq ədəbiyyatımızın yaşatdığı bu dəyərlərimizi isə müasir dövrdə media işıqlandırır, tanıdır, sabaha ötürür. Mediamız qədim diyarımızın sosial-iqtisadi və ictimai-mədəni həyatı, quruculuq və müasir inkişaf salnaməsilə yanaşı, milli-mənəvi dəyərlərimizin təbliğində də vasitəçidir. “Şərq qapısı”, şəhər və rayon qəzetləri, Naxçıvan Dövlət Televiziya və Radiosu, o cümlədən “Naxçıvanın səsi” radiosu və “Kanal 35” televiziyası, “Nuhçıxan” İnformasiya Agentliyi, “Naxçıvan xəbərləri” və digər informasiya-xəbər saytlarında çalışan muxtar respublikamızın çoxsaylı jurnalistləri həm milli-mənəvi dəyərlərimizin qoruyucusu, həm də təbliğatçısıdırlar...

***Böyükdən-kiçiyə ötürülən, nəsildən-nəslə miras ərməğanı olan mətbəx nümunələrimizin, adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin ata ocağı Naxçıvan!.. Səninlə öyrəndik milli kimliyimizi unutmamağı, milli-mənəvi dəyərlərimizə sahib çıxmağı. Hər zaman da elə səndən öyrəndiklərimizlə cəmiyyətimizi də, ailəmizi də böyük gələcəyə aparacağıq. Müasir, həm də milli-mənəvi dəyərlərimizlə zənginləşdirəcəyimiz gözəl gələcəyə...***

**Güntac ŞAHMƏMMƏDLİ**

***Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

# Hamam mədəniyyəti və Naxçıvanda yeraltı hamam memarlığı

***Hər xalqın nə qədər qədim tarixə malik olduğunu sübut edən onun mədəniyyətidir, tarixi-memarlıq abidələridir. Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisi də ilk insan məskənlərindən biridir. Qədim Daş dövründən başlayaraq insanlar bu ərazidə yaşamış, zəngin mədəniyyət yaratmışlar. Bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvanda Azərbaycan xalqının tarixi, elmi və mədəni irsi formalaşmış, əsrlərboyu Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi ənənələri qorunub saxlanılmışdır. Bu qədim diyarda hər addımda ilk insanların yaşadıqları mağaralara, erkən şəhər mədəniyyəti qalıqlarına, qayaüstü rəsmlərə, bir sözlə, nadir maddi mədəniyyət nümunələrinə rast gəlmək mümkündür.***

Bu mədəniyyət nümunələrindən biri də hamamlardır. Məlumdur ki, isti və soyuq su ilə təminatlı, xüsusi bir formaya malik olmaqla insanların yuyunması üçün istifadə etdikləri sanitar qurğulara hamam adı verilir. Hamam sözünün mənası "isitmək", "isti etmək" anlamına gəlir. Hamamlar tarixboyu insanlar üçün rahatlığın, təmizliyin, diriliyin, sağlamlığın, dincliyin, istirahətin, ruhun təzələndiyi məkan sayılıb. Tarixən insanların daim icra etdiyi təmizlik adətləri; – çimmək, su ilə yaxalanmaq fiziki təmizliyin başlıca şərtinə çevrilib. Hamamlardan təkcə təmizlik məkanı kimi yox, həm də mədəni, ictimai, sağlamlıq məqsədilə istifadə ediblər. Bir çox xalqların tarixindən bəlli olur ki, dincəlmək, şəkil çəkmək, şeir yazmaq, yorğunluqdan xilas olmaq üçün də ən rahat yer kimi məhz hamamlar seçilirmiş.

Müxtəlif xalqların mifologiyasında, folklorunda hamamla bağlı deyimlər, atalar sözləri, mahnılar, bayatılar və sairin olması təsadüfi deyil. Qədim zamanlarda evlərdə hamam tikmək mədəniyyəti olmadığı üçün insanlar çay, göl, dəniz kimi təbii su mənbələrində yuyunardılar. Bu da mövsümi xarakter daşıyardı. Hamam mədəniyyəti isə suyun qızdırılaraq təmizlik məqsədilə ilin bütün fəsillərində istifadə üçün yararlı olmasıdır.



*Ordubad rayonu, Vənənd kənd hamamından bir görünüş*

Hər şeyin bir ilki olduğu kimi, hamam mədəniyyətinin də, əlbəttə, bir başlanğıcı olmalıdır. Hamamlar haqqında aparılan araşdırmalar bu mədəniyyətin tarixinin çox qədim dövrlərə dayandığını göstərməkdədir.

Tarixi mənbələrə görə, hamam mədəniyyəti qədim Şumerlərdən başlayıb. Məsələn, tarixi qaynaqlardan birində Şumer kralı Bilqamışın xüsusi bir yerdə su ilə yaxalanmasına dair məlumatlar var. Qədim hamam mədəniyyətinin ən çox yayıldığı ölkələr sırasında Şumerlərin, romalıların, osmanlıların yaşadıqları yerlər göstərilir. Tarixi qaynaqlara görə, dünyada elmə bəlli olan ilk örtülü ictimai hamam miladdan öncə, 2500-cü ildə inşa edilib.

Xristianlığın yayılmasından sonra Qərb dünyasındakı hamam mədəniyyəti, tədricən, unudulmuş, bütün hallarda olduğu kimi, bu mədəniyyət də öz yerini Şərq dünyasına vermişdir. Bunun əsas səbəblərindən biri də odur ki, dünyanı günəş kimi işıqlandıran İslam təmizliyə böyük əhəmiyyət verirdi. Orta əsr müsəlman Şərq fəlsəfəsinin dahi nümayəndəsi İmam Qəzali (1059-1111) göstərir ki, "Qullarına ehsan edilən özlərini təmizliyə çağıran, batinlərini təmizləmək üçün qəlblərinə nur və lütflərini axıdan, təmizlik üçün diqqət və şəffaflıq özəlliyi daşıyan suyu bəxş edən Allaha həmd olsun. Allah, kainatın hər tərəfini hidayət nuruna qərq edən Məhəmməd Peyğəmbər (s.ə.s.) ilə maddi və mənəvi təmizliyə nail olmuş yaxınlarına bərəkətləri qorxulu gündə bizi qurtaracaq bizimlə hər cür fəlakət arasında sipər olacaqlara salam olsun". İmanın yarısının təmizlik olduğunu göstərən Peyğəmbər (s.ə.s) buyurur: *"Namazın açarı təmizlikdir, təmizlik imanın yarısıdır"*.

Müsəlman dini həm qəlb (mənəvi) təmizliyinə, həm də xarici (maddi) təmizliyə böyük önəm verir. Tarixi qaynaqlardan məlumdur ki, müsəlmanlığın yaranmasının ilk dövrlərindən başlayaraq müsəlmanlar hamamlardan istifadə etmişlər. Həmin dövrlər ev hamamları ilə yanaşı, məhəllə hamamları da çox yayılmışdı. Kənardan gələnlərin belə, ehtiyac olduqda yuyuna bilməsi üçün hər şəhər və kənddə hamamlar qurulmuşdu.

Orta əsr müsəlman intibahı dövründə elmin, incəsənətin bütün sahələrində olduğu kimi, hamam mədəniyyəti də özünün intibah zirvəsinə çatmışdır. Hicri tarixi ilə III əsrdə Bağdadda müasirtipli bir çox hamamların olması elmə məlumdur. Bu hamamlar müasir dövrdə olduğu kimi, qapalı və fərdi xarakter daşıyırdı.

Azərbaycanda da hamam mədəniyyətinin tarixi çox qədim dövrlərə gedib çıxır. Ölkəmizdə, o cümlədən Naxçıvan ərazisində qədim yeraltı hamam memarlıq formaları nümunələri müasir dövrə qədər gəlib çatmışdır. Naxçıvan Muxtar Respublikası ərazisində inşa tarixi XVIII-XIX əsrlərə aid olan belə memarlıq nümunələri Ordubad, Culfa, Şərur və Sədərək rayonlarının ərazilərində yerləşir. Apardığımız araşdırmalar nəticəsində aydınlaşmışdır ki, belə nümunələrin sayı 20-yə yaxındır. Bunların bəzilərinin, sadəcə, yerləri, bəziləri yarıuçuq vəziyyətdə, bəziləri isə memarlıq formaları tam sağlam şəkildə müasir dövrə qədər gəlib çatmışdır. Son dövrlərdə Naxçıvanda bütün tarixi abidələrdə olduğu kimi, qədim hamamların bərpası istiqamətində də mühüm işlər görülür. Ötən dövrdə Naxçıvan və Ordubad şəhərlərində, Şərur rayonunun Yengicə kəndindəki tarixi hamamlar bərpa olunub. Bu yaxınlarda isə Kəngərli rayonunun Şahtaxtı kəndindəki Şərq hamamı yenidən qurularaq istifadəyə verilib.

Bu isə xalqımızın qədim və zəngin mədəni tarixinin yaşadıcısı, maddi mədəniyyət abidəsi və memarlıq nümunəsi olan hamamlarımızın mənəvi miras kimi qorunub saxlanılmasına, gələcək nəsillərə ötürülməsinə göstərilən dövlət qayğısının təzahürüdür.

Muxtar respublikamızın ərazisində qədim yerüstü memarlıq abidələrində olduğu kimi, yeraltı memarlıq formaları olan hamamlar da qədim Şərq memarlıq formalarında inşa edilən mükəmməl memarlıq konstruksiyalarına malikdir. Bu memarlıq formalarının elmi tədqiqi qədim tarixə malik memarlıq irsimizin elmi nəzəriyyəsinin daha da zənginləşməsinə səbəb olar.

**Qadir ƏLİYEV**
***memarlıq üzrə fəlsəfə doktoru, dosent,***
**Leyla İBRAHİMOVA**
***Naxçıvan Dövlət Universitetinin əməkdaşları***

## Könüllülərlə onlayn görüş



***Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən könüllülərlə "Könüllü fəaliyyətinin hüquqi əsasları və könüllülərin hüquqları" mövzusunda onlayn görüş keçirilib.***

"Zoom" platforması üzərindən keçirilən tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev bildirib ki, könüllülərin, onların çalışdıqları sahələrin sayı artdıqca bu fəaliyyətin hüquqi tənzimlənməsi məsələsi daha da aktuallaşır. Könüllülük fəaliyyəti ilə məşğul olmaq niyyətində olan istənilən şəxsin öz hüquqi statusunu, yəni hüquq və öhdəliklərini bilməsi onu gələcəkdə yarana biləcək problemlərdən qorumuş olur. Təəssüf ki, bir çox hallarda könüllülər qanunvericilikdə bu normaların mövcudluğu barədə məlumatlı deyillər və bu səbəbdən onların göstərdiyi fəaliyyət qanunun müdafiəsindən kənarda qalır. Nəticədə, könüllülərin əməyi istismar olunur, onların fəaliyyəti qanunla deyil, şifahi razılaşmalarla tənzimlənmiş olur.

Görüşün əsas məqsədi könüllü fəaliyyətinə dair anlayışlara hərtərəfli aydınlıq gətirmək, könüllülərin hüquq və vəzifələrini izah etmək, onların fəaliyyətini təminat altına almaq üçün qanunla təşkilatçıların üzərinə hansı öhdəliklərin və vəzifələrin qoyulduğu, bu fəaliyyət haqqında müqavilənin üstünlükləri barədə məlumat verməkdir.

Gənclər Fondunun Gənclər təşkilatları və gənclər ilə iş şöbəsinin müdiri Arzu Qasımov, İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının şöbə müdiri Vahidə Bayramova, Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat şöbəsinin əməkdaşı Həbibə Əliyeva könüllülük fəaliyyəti ilə bağlı müxtəlif mövzularda çıxış ediblər.

Sonda könüllülərin təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Boccia üzrə muxtar respublika birinciliyi



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyasının təşkil etdiyi 18 yaşadək fiziki imkanları məhdud uşaqlar arasında açıq səma altında keçirilən boccia idman növü üzrə muxtar respublika birinciliyinə yekun vurulub.

20-yə yaxın idmançının mübarizə apardığı birincilikdə qalib adını Vahid Nuriyev qazanıb. Turqay Məmmədov ikinci, Canər Tağızadə isə üçüncü olublar.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplom, digər iştirakçılara isə fəxri fərmanlar təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## İntellektual oyun keçirilib

*Naxçıvan şəhərindəki Sahil Parkında gənclər arasında "Axtar tap" intellektual oyunu keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən oyunda 8 komanda mübarizə aparıb.

Oyunun keçirilməsində məqsəd gənclərin intellektual səviyyəsinin, dünyagörüşünün, zehni inkişafının stimullaşdırılması, onlar arasında bilik və elmin təbliği, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.

Gənclər ərazinin müxtəlif yerlərində hazırlanan suallara cavab taparaq birincilik uğrunda mübarizə aparıblar. Suallara daha tez cavab verən "Diplomat" komandası qalib adını qazanıb. "Batabat" və "Kainat" komandaları müvafiq olaraq ikinci və üçüncü yerlərlə kifayətləniblər.

Sonda qalib komandalara təşkilatçılar tərəfindən kubok, diplom və fəxri fərmanlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsində vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 19 iyun-20 iyul 2020-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər elektron ərizəni təsdiq etmək məqsədilə test imtahanında iştirak üçün qanunvericilikdə müəyyən edilmiş ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Struktur bölmə | Ştat sayı | Təsnifat | Vəzifə |
|---|---|---|---|---|
| 311013 | Rəhbərlik | 1 | 7 | baş məsləhətçi-hüquqşünas |
| 311123 | Tikinti müfəttişliyi (sektor səlahiyyətli) | 2 | 7 | baş məsləhətçi |
| 311133 | Dövlət ekspertiza mərkəzi (sektor səlahiyyətli) | 3 | 7 | baş məsləhətçi |
| 311134 | Dövlət ekspertiza mərkəzi (sektor səlahiyyətli) | 1 | 7 | böyük məsləhətçi |
| 311145 | Mühəndis-geoloji, beton və sement laboratoriyası (sektor səlahiyyətli) | 1 | 7 | aparıcı məsləhətçi |
| 311146 | Mühəndis-geoloji, beton və sement laboratoriyası (sektor səlahiyyətli) | 2 | 7 | məsləhətçi |
| Cəmi: | | 10 | | |

**İtmişdir**

Zeynalova Xanım İlqar qızının adına Naxçıvan Müəllimlər İnstitutu tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 451